# Azərbaycanın postmüharibə haqlarını qəbul etməyənlərlə mübarizədə diasporumuzun fəallıq problemləri...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

**Vətən müharibəsindən sonrakı dövr Azərbaycan diasporunun da qarşısında yeni vəzifə və məsuliyyətlər qoyur. Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı müharibə və onun nəticələri ilə bağlı həqiqətlərin dünyaya çatdırılması, diaspor və lobbiçilik istiqamətində gələcək fəaliyyət planları ilə bağlı xaricdə yaşayan ziyalılarımızın təklifləri maraqlıdır.**

Diasporla İş üzrə Dövlət Komitəsinin saytında yer alan materiallardan görünür ki, soydaşlarımız bu dönəmdə fəallıqlarını daha da artırıb. Yaponiyada yaşayan azərbaycanlı alim, Tokio Universitetinin doktoru, Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri Xəlil Kələntər hesab edir ki, diaspor işi davamlı bir prosesdir. Hər bir mərhələdə yeni məqsədlərlə fəaliyyətə başlayıb nəticələrə nail olmaq lazımdır: "Amma Ermənistan məsələsi proses deyil və başa çatmayan fəaliyyətdir, ona görə də bütün planlarımızı davamlı şəkildə qurmalı, həyata keçirməliyik. Ölkədə elm, mədəniyyət, iqtisadiyyat, texnologiya, süni zəka xalqımızın təhlükəsizliyi və Azərbaycanın uğurlu gələcəyi naminə inkişaf etdirilməlidir. Bu istiqamətdə diaspor daha yaxşı vasitə ola bilər. Bu o deməkdir ki, siz hər hansı bir sənədi hazırlayaraq diasporun rəyini aldıqdan sonra onu yenidən işləyib həyata keçirmək üçün təkrar diaspora göndərirsiniz. Diaspor isə bizim haqq səsimizi çatdırmaq üçün hər bir ölkədə yerli media mənbələri ilə əlaqələr qurulmasını davam etdirir. Bütün bu fəaliyyətlər dünyadakı diasporumuz tərəfindən, eyni zamanda, reallaşmalıdır. Bu işdə sosial şəbəkələrdə fəal olan diaspor üzvlərinin dəstəyindən də istifadə etmək olar".

### Azərbaycan dövləti həm də dünyada yaşayan 50 milyondan artıq soydaşımızın vətəni sayılır

ABŞ-ın Men ştatının "Qaçqınların Məskunlaşması Federal Proqramı"nın əlaqələndiricisi, Meyn-Azərbaycan Cəmiyyətinin rəhbəri Tərlan Əhmədovun fikrincə, Vətən müharibəsindən sonra başlayan yeni dövrdə diasporun qarşısındakı əsas vəzifə yenə də siyasi dairələrlə işləyərək təsir imkanlarımızı artırmaqdır: "Amerika Azərbaycanlıları Şəbəkəsi (USAN) olaraq lobbiçilik istiqamətində işimizi gücləndirməliyik. Bundan başqa, ikinci mərhələ diasporun yaxından iştirakı ilə lobbiçiliyin koordinasiyalı şəkildə aparılmasıdır. Üçüncüsü, hesab edirəm ki, akademik sahədə fəaliyyətimizi gücləndirib seminarlar, elmi konfranslar keçirməli, tədqiqatlar aparmalı, universitetlərdə güclü təbliğat işi qurmalıyıq. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, artıq siyasətimizi fərqli qurmalıyıq. Güclü təmsilçilik üçün akademik sahədə də ciddi işlər görülməlidir. Mədəni təbliğatı davam etdirərək mütəmadi şəkildə tədbirlərin keçirilməsini təmin etməli və bu istiqamətdə təbliğatımızı gücləndirməliyik. Biz, ABŞ-da yeni bir proqramla - burada yaşayan azərbaycanlıların ermənilərin təsir etdiyi mərkəzlərlə hansısa formada dialoq qurması istiqamətində işləməyi düşünürük. Amma qarşıdakı 5 il ərzində bizə qarşı nifrətin azalması üçün nəticələr əldə etmək məqsədilə iş mexanizmini indidən düşünməliyik…"

Qeyd edək ki, postmüharibə dönəmində bizim ölkə olaraq rastlaşdığımız təzyiqlərdən biri də İrandan oldu. Həmin ölkə bütün varlığı ilə bizə təzyiqlər göstərməyə çalışdı. Çünki Azərbyacanın öz gücünə yaratdığı reallıqlar onları qane etmirdi. Bu istiqamətdə də biz dünyada yaşayan soydaşlarımızın aktiv dəstəyini gördük. Xüsusilə də İranın daxilindəki soydaşlarımız İran rejiminin təzyiqlərindən çəkinməyərək, Azərbaycan dövlətinə qarşı təzyiqlərə son qoyulmasını tələb etdilər. Biz, həmçinin, dünyanın müxtəlif ölkələrində yaşayan əslən Cənubi Azərbaycandan olan soydaşlarımızın bu yöndə dövlətimizə verdiyi aktiv dəstəyi müşahidə etdik. Azərbaycan dövləti həm də dünyada yaşayan 50 milyondan artıq soydaşımızın vətəni sayılır. Çünki dünyanın müxtəlif ölkələrinə səpələnmiş əslən azərbaycanlı olan söydaşlarımızın bir müstəqil dövləti var, o da Azərbaycan Respublikasıdır. Dövlətimiz əhəmiyyətli sayda olan soydaşlarımızın diaspor halında təşkilatlanması, inkişaf etməsi istiqamətində əlindən gələn nə varsa edir.



### Uğurlarımızın bol olması üçün hər birimizin ilk növbədə vətəni və milləti təmənnasız sevməsi lazımdır

Beynəlxalq Diaspor Mərkəzinin (BDM) rəhbəri İsmayıl Ağayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bizim diaspor və lobbiçilik sahəsində uğurlarımızın bol olması üçün hər birimizin ilk növbədə vətəni və milləti təmənnasız sevməsi lazımdır: "Burada düşüncəni, yanaşmanı dəyişmək lazımdır. Ermənilərin xaricdə yaşayan istənilən ixtisas sahibi olan diaspor fəalları öz aktivliklərini yerə qoymurlar. Bunun səbəbi bəllidir. Onların diasporla bağlı formalaşmış ideologiyaları dövlətdən nəsə qoparmaq yox, dövlətə, millətə xidmət etməkdən ibarətdir. Buna ideoloji vətənpərvərik deyilər. Onlar bu istiqamətdə çoxdan işləyirlər. Bizdə bu sahədə axsama var. Çalışmalıyıq ki, yanaşma şəxslərə, hansısa qurumlara uyğun yox, vətənə xidmət üzərində formalaşsın. Ermənilərə heç diaspor komitəsi lazım deyildi. Həmin dövlət qurumu ləğv edildi, amma vəziyyət dəyişmədi. Çünki onların erməniçilik ideologiyasının başında hər zaman kilsə dayanıb və bu gün də həmin iş aparılır. Düşmən olmaqlarına baxmayaraq, biz onların bu istiqamətdəki uğurlarını ciddi tədqiq etməliyik. Bizim diasporun təmsil olunduğu ölkələrin həyatına yaxından inteqrasiya etmək problemi də mövcuddur. Sovet dönəmində Heydər Əliyev çoxlu sayda azərbaycanlını Rusiyanın müxtəlif şəhərlərinə ali təhsil almağa göndərirdi. Bu onun uzaqgörən siyasəti idi. Həmin tələbələrinin əksəriyyəti ora inteqrasiya olunmaq əvəzinə, ali təhsili başa vuran kimi qaçıb gəlirdilər Azərbaycana. Ermənilər isə bacardıqları qədər düşdükləri ölkədə möhkəmlənməyə çalışırdı. İkincisi isə bizim mentalitlə bağlı məsələdi. Ermənilər xristian toplum olduqları üçün öz qızlarının, həyat yoldaşlarının həmin cəmiyyətdə işləmələrinə adi hal kimi baxıblar. Biz isə buna icazə verməmişik. Müstəqillikdən sonrakı dönəmdə xaricdə təhsil almış 10 minlərlə gəncimiz var ki, onları biz lazımi qurumlara yerləşdirə bilməmişik. Təbiidir ki, belə dəstəyi diasporumuz verməlidir. Bu da bizim inteqrasiya prosesimizi zəiflədir. Bizim diaspor nümayəndələrində mənəm-mənəmlik, pul qazanmaq hərisliyi həddən artıq çoxdur. Liderlik uğrunda daim mübarizə gedir. Bu da diaspor təşkilatlarımızın parçalanması ilə nəticələnir. Hesab edirəm ki, güclü lobbi təşkilatlarımızın formalaşmasının bir yolu da yaşadığımız yerlərdə kompaktlığı təmin etməkdən keçir. Ermənilər harda yaşayırlarsa, ətraflarına həmyerlilərini yığırlar. Biz bütün bu çatışmazlıqları düzətmək istiqamətində hərəkətə keçməliyik. Əks təqdirdə, bizi istəməyən qüvvələr bundan daha məharətlə istifadə edəcəklər".

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**